# ÜMİDLƏRİN YENİDƏN DOĞULDUĞU GÜN – ZƏFƏR GÜNÜ

**Ayna Asim qızı Əhmədli**
***BDU-nun Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə I kurs, 132-ci qrup tələbəsi***

Bu gün o gündür, nəhayət. Zəfər günümdür, nəhayət. Arzuladığım gündür, nəhayət. 27 il öncə verdiyim sözü tutdum, nəhayət. İndi oturmuşam ağac altında. Dərin bir nəfəs alıram doyunca. İndi anldım, yaşamaq bu imiş. Sanki 27 il boyunca ara vermişəm yaşamağa. Mən həyatım harada durdu axı? Mən nə zaman unutdum yaşamağı? Mənim üçün zaman o gün durdu. O qara xəbərin gəldiyi gün durdu mənim həyatım. Böyük bir həsrət vardı o gün içimdə. Çünki atam gələcəkdi o gün. Çəkdiyim şəkli ona göstərəcəkdim. Durmadan sual verəcəkdim. Həvəslə danışacaqdım içimdən keçənləri. Dərin bir sükut vardı o gün bizim evdə. İnsanın canına bir acı tək yayılan sükut. Hər kəs bizə gəlməli idi o gün. Çünki atam gəlirdi o gün. Cəbhədən gələcəkdi mənim qəhrəman atam. Mənə deyəcəkdi zəfərlərini, neçə düşmən məhv etdiyini. Evimizi xilas etdiyini. Axı mənə söz vermişdi, oğlum, evimizi alıb gələcəm, -demişdi. Birlikdə gedəcəkdik sonra evimizə. Atam gələcəkdi o gün. Qapı döyüldü. Atam gəldi deyə, ürəyim çıxdı yerindən, amma atam gəlmədi, onun qara xəbəri gəldi. Neçə gün keçdi, o gəlmədi. Mən birinci sinifə getdim, amma atam gəlmədi. Məktəb bitirdim, atam yenə gəlmədi. Mən yenə də inanırdım, o gələcək deyə. Axı mənim qəhrəman atam məni qoyub necə gedərdi? Düşündüm ki, bəlkə, atam mənim ən xoşbəxt olduğum gün gələr. Mən ali məktəbə daxil oldum. Hər kəs xoşbəxt oldu. Atamın ölüm xəbəri gəldiyi gün içi qan ağlasa da, ağlamayan anam sevincdən göz yaşı tökürdü. Hər kəsi xoşbəxt etdim, özüm xoşbəxt olmadım. Çünki atam yenə gəlmədi. O gün anladım, atam artıq gəlməyəcəkdi. Atam artıq gəlməyəcəkdi. Axı niyə biz o soyuq gündə düşmən əcəl olub arxamızdaykən, ayaq yalın qaçarkən məni tək qoymayan atam, niyə məni qoyub getdi bir daha da gəlmədi? Məni bu qədərmi sevmirdi. Bilirdim, atam ölmüşdü, atam artıq gəlməyəcəkdi, amma içindəki o uşaq hələ də inanmaq istəmirdi. Çünki mən hələ də o gündə qalmışdım. O masa başında atasını gözləyən o uşaqdım hələ də. Mənim həyatım o gündə qalmışdı. Qara xəbərin gəldiyi an mənim həyatım dayanmışdı. Atamın gəlməyəcəyini anladığım an özümə söz verdim. Atamı məndən alanların məndə canını alacaqdım. Məni ailəmi ayaq yalın, başı açıq yurdumdan qovanları yurdumdan qovacaqdım. Atama söz verdim. Ata, sən gəlmədin madam, mən gəlirəm o zaman. Bu gün artıq sözümü tutdum. İndi bu ağacın altında özümə bir söz verirəm. Həyatıma qaldığı gündən atamın həyatının qaldığını yerindən davam edəcəm.